AzJESS
Azerbaijanian Journal of Economics and Social Studies

*Azərbaycanın İqtisadi və Sosial Araşdırmalar Jurnalı*
*www.azjess.com*
Sayı/Number 4, 2015

# AZƏRBAYCAN RESPUBLİKASINDA SOSİAL-İQTİSADİ İNKİŞAFIN DAVAMLIĞINI XARAKTERİZƏ EDƏN GÖSTƏRİCİLƏRİN TƏHLİLİ

**İsgəndərov Ramiz Kamal oğlu**
i.e.d., professor
**Abbasova Şərqiyyə Abbas qızı**
i.ü.f.d., dosent
**Quliyev Rafiq Meyxoş oğlu**
f\r.ü.f., dosent
**Mirzəyev Fərhad Əlif oğlu**
t.ü.f.d., dosent

**Xülasə**

Ölkənin inkişafı çoxtərəfli və çoxaspektli bir prosesdir və adətən, sosial-iqtisadi məqsədlər nöqteyi-nəzərindən araşdırılır. Sosial-iqtisadi göstəricilər bloku bu və ya digər ölkənin iqtisadi vəziyyətini xarakterizə edən əsas makroiqtisadi göstəricilər arasında kifayət qədər mühüm yer tutur. Sosial-iqtisadi inkişafın davamlığı əsasən iqtisadi, sosial və ekoloji inkişafın davamlığı ilə şərtlənir. Təqdim olunan məqalədə də Azərbaycanın davamlı sosial-iqtisadi inkişafını xarakterizə edən göstəricilər sistemi təhlil edilmiş və müvafiq təkliflər verilmişdir.

**Açar sözlər:** Azərbaycan, davamlı inkişaf, sosial-iqtisadi inkişaf, investisiya, ekoloji inkişaf.

Hər bir ölkənin sosial–iqtisadi inkişafını təmin edilməsi dövlətin qarşıya qoyduğu mühüm məsələlərdən biridir. Bu isə ölkə iqtisadiyyatının hərtərəfli inkişafını və əhalinin həyat səviyyəsinin yüksəlməsini nəzərdə tutulur. Sosial - iqtisadi inkişafın davamlığı dedikdə elə bir inkişaf prosesi nəzərdə tutulur ki, cari zamanın tələblərini ödəyərək, gələcək nəsillərin maraqlarına ziyan vurulmur. Belə inkişaf BMT-nın sənədlərində öz əksini tapan davamlı inkişaf konsepsiyasına əsaslanır. Davamlı inkişaf termini uzun bir tarixə malikdir ki, o da ətraf mühitlə sosial-iqtisadi inkişaf problemləri arasında olan əlaqələr aşkar olunandan sonra BMT-nin birinci konfransının ətraf mühitə aid deklarasiyasının və Roma klubunun araşdırmaları nəticəsində tərəqqi tapmışdır. Davamlı inkişaf öz təbii təməlini dağıtmadan davamlı, sosial, iqtisadi inkişafdır. Ancaq

bu inkişafın şərtləri gələcək nəsillərin sağlam yaşaması və inkişafına, eyni zamanda ətraf mühitin normal şəraitdə saxlanılmasına təminat verir. Hazırda elmi ədəbiyyatlarda davamlı inkişafın 60-a yaxın tərifinə rast gəlmək olar. Onlardan ən çox istifadə olunan tərif BMT tərəfindən təşkil olunmuş komissiyanın məruzəsində, sədr xanım Brudtland tərəfindən irəli sürülmüşdür: "Davamlı inkişaf - bu günkü cəmiyyətin tələbatlarının gələcək nəsillərin tələbatlarını ödəmək imkanlarını təhlükə altına qoymamaq şərti ilə ödənilməsi deməkdir". Ekolojı məhdudiyyət problemi, indiki və gələcək istehlak arasında kompromis, hər bir ölkənin uzun müddətli sosial–iqtisadi inkişafının strategiyasının qurulması üçün əsas olmalıdır . Davamlı inkişaf nəzəriyyəsi son 10 ildə nəinki mühüm elmi-tədqiqat obyekti, həmçinin praktiki həyata keçirilən nəzəriyyədir. Bütün inkişaf etmiş ölkələr məhz davamlı inkişafa cəhd edirdilər. Bizim ölkəmizdə bu inkişafa kecmək üçün "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azalması və davamlı inkişaf" adında dövlət proqramı qəbul edilmişdir.

Ölkənin inkişafı çoxtərəfli və çoxaspektli bir prosesdir və adətən, sosial və iqtisadi məqsədlər nöqteyi-nəzərindən araşdırılır. Hətta iqtisadi inkişafdan danışdıqda belə, onu sosial inkişafdan ayırmaq olmur. Sosial-iqtisadi göstəricilər bloku bu və ya digər ölkənin iqtisadi vəziyyətini xarakterizə edən əsas makroiqtisadi göstəricilər arasında kifayət qədər mühüm yer tutur. Əhalinin həyat səviyyəsinə iqtisadi islahatların təsirinin nəticələrini qiymətləndirmə vasitəsi kimi müxtəlif makroiqtisadi və sosial göstəricilərindən istifadə edilir.

Məqalədə də Azərbaycanın sosial–iqtisadi inkişafı xarakterizə edən göstəricilər təhlil olunmuşdur. Bu məqsədə nail olmağın zəruri şərti-iqtisadi inkişafın nəticələri ilə əhalinin həyat keyfiyyətinin və ətraf mühitin bir ölçüdə təhlilidir. Bunun üçün elə göstəricilər sisteminin formalaşdırılması problemi qarşıya çıxır ki, məhz bu göstəricilər sisteminə əsaslanaraq iqtisadiyyatın, təbiət və cəmiyyətin qarşılıqlı inkişafının vəziyyəti barədə kompleks qiymətləndirmə aparmaq mümkün olsun.

Qeyd edək ki, göstəricilər sisteminin qurulması məsələsi bir sıra müəlliflərin [2,3,4] işlərində baxılmışdır. Bunların arasında V.N.Tamoşeviçin [4] təqdim etdiyi göstəricilər sistemi zənnimizcə daha məqsədəuyğundur. Müəllifin fikrincə davamlı iqtisadi artıma qarşılıqlı təsir edən sosial-iqtisadi inkişafın əsas göstəricilərini şərti olaraq 3 qrupa bölmək olar:

1) İqtisadi artımın həcmli (kəmiyyət nöqteyi nəzəri başa düşülür) göstəriciləri: məsələn, ümumi daxili məhsul, sənaye və kənd təsərufatı istehsalının həcmi, pərəkəndə ticarət dövriyyəsinin həcmi və s.;

2) İqtisadi artımın keyfiyyət göstəriciləri: məsələn, investisiya qoyuluşlarının həcmi, istehlak malların qiymət indeksi, və s.;

3) Ölkədə demoqrafik situasiyanı (şəraiti) və ətraf mühitin vəziyyətini xarakterizə edən davamlı sosial-iqtisadi inkişaf göstəriciləri .

Tədqim olunan məqalədə sosial-iqtisadi inkişafı xarakterizə edən göstəriciləri üç grupa bölmək təklif olunur: iqtisadi, sosial və ekoloji.

Yuxarda qeyd etdiymiz kimi, sosial-iqtisadi inkişafın davamlığı əsasən iqtisadi, sosial və ekoloji inkişafın davamlığı ilə şərtlənir. Bununla əlaqədar sosial- iqtisadi inkişafın göstəricilərini üç grupa bölmək olar: iqtisadı, sosial və ekolojı.

Müasir dövrdə ekoloji təhlükəsizlik səviyyəsi cəmiyyətin sivilizasiya meyarına çevrilmişdir. Uzun illər ərzində təbiətin mühafizədən kənarda qalması nəticəsində və əsas diqqətin maddi istehsala verilməsi ciddi ekoloji problemlərə səbəb olmuşdur. Bu problemlərin həllini ekoloji təhlükəsiz davamlı inkişaf konsepsiyasının mövcudluğu mümkün etmişdir. Təbiətdən istifadənin iqtisadi qiymətləndirmə sistemi ekoloji problemlərin həllində böyük rol oynayır. Bu sistem təsərrüfat obyektlərini öz istehsal fəaliyyətlərini ekoloji faktorların uçotu ilə modelləşdirməyə sövq edir. Ekoloji-iqtisadi modelləşdirmə müəssisələrə ətraf mühitin çirkləndirilməsi ilə bağlı ödəniləcək məsrəflərin minimallaşdırılması imkanını verir. Bunun nəticəsində ətraf mühitin çirklənmə səviyyəsinin aşağı olması və təbii ehtiyatlardan qənaətlə istifadəsi təmin olunur.

Ekoloji göstəricilərə ətraf mühütin vəziyyətini xarakterizə edən göstəricilər aiddir. İlk növbədə buna atmosfera buraxılan və suya tökülən tullantilar həcmi aiddir. Cədvəl 1-də bu göstəricilərin 1990-ci ildən 2013- ci ilədək dəyişməsi təsvir olunmuşdur.

*Cədvəl 1.*

**Ekoloji göstəricilər**

| İllər | Çirkləndirici maddələrin atmosfer havasına atılması , min ton | Çirkab suların atılması, mln. kub.m |
|---|---|---|
| 2000 | 908 | 4106 |
| 2001 | 979 | 3966 |
| 2002 | 620 | 4596 |
| 2003 | 838 | 4749 |
| 2004 | 975 | 4817 |
| 2005 | 1054 | 4878 |
| 2006 | 875 | 5164 |
| 2007 | 970 | 5237 |
| 2008 | 937 | 5325 |
| 2009 | 997 | 4802 |
| 2010 | 957 | 6005 |
| 2011 | 1003 | 5068 |
| 2012 | 1076 | 5419 |
| 2013 | 1119 | 5173 |

Mənbə: http://www.stat.gov.az/source/environment/

Cədvəl 1-dən göründüyü kimi, ildən-ilə atmosfer cirklənməsində artım müşahidə olunur, belə ki, 2013-cü ildə Azərbaycanda çirkləndirici maddələrin atmosferə atılması 1119 т. təşkil edib ki , bu da 2000-ci illə müqayisədə 23% coxdur. Çirkab suların miqdarına nəzər salsaq, görərük ki, 2013-cü ildə bu rəqəm 5173 min ton təşkil edərək , 2000-ci illə müqaisədə 26% çox olmuşdur.

İqtisadi aspekt baxımından, qeyd etmək lazımdır ki, sosial-iqtisadi inkişafının məqsədləri bilavasitə iqtisadiyyatın ümumi vəziyyəti və milli xüsusiyyətlərlə sıx

əlaqədardır. İlk növbədə iqtisadi göstəricilər arasında Ümumi daxili məhsul (ÜDM) və onun adambaşına düşən həcmi xususi yer tutur.

*Cədvəl 2.*

Ümumi Daxili Məhsul

| İllər | Milyon manat | Milyon ABŞ Dolları | Adambaşına | |
|---|---|---|---|---|
| | | | Manat | dollar |
| 2000 | 4718.1 | 5272.8 | 595.1 | 665.1 |
| 2001 | 5315.6 | 5707.7 | 665.2 | 714.3 |
| 2002 | 6062.5 | 6235.9 | 752.9 | 774.4 |
| 2003 | 7146.5 | 7276.0 | 880.8 | 896.8 |
| 2004 | 8530.2 | 8680.4 | 1042.0 | 1060.3 |
| 2005 | 11875.6 | 12553.5 | 1435.7 | 1517.7 |
| 2006 | 17135.8 | 19852 | 2120.3 | 2373.3 |
| 2007 | 25228.1 | 30033.5 | 2980 | 3548.7 |
| 2008 | 40137.2 | 48852.5 | 4603.7 | 5603.3 |
| 2009 | 35601.5 | 44297 | 4033.2 | 5018.2 |
| 2010 | 42465 | 52909.3 | 4753 | 5922 |
| 2011 | 52082 | 65951.6 | 5752.9 | 7285 |
| 2012 | 54743.7 | 69683.9 | 5966.1 | 7594.3 |
| 2013 | 58182 | 74164.4 | 6258.3 | 7977.4 |

Mənbə: http://www.stat.gov.az/source/system_nat_accounts/

Cədvəl 2-də Azərbaycanda ÜDM, adambaşına düşən ÜDM-in həcmləri milli valyuta və ABŞ dolları ilə göstərilmişdir. Bu cədvəldən görünür ki, Azərbaycanda adambaşına düşən ÜDM-nın artım tempi kifayət gədər yüksəkdir və bu da iqtisadi artımın son illərdə davamlı xarakter daşıdığını göstərir. Belə ki, 2013-ci ildə ÜDM-nin həcmi 58182 mln. manat təşkil edərək 2000-ci illə müqayisədə 12 dəfə artmışdır. Adambaşına düşən ÜDM-nin həcmi 2013-ci ildə 6258,3 manat təşkil edərək, 2000-ci illə müqayisədə 10 dəfədən çox artmışdır.

Lakin bu artım əsasən təbii sərvətlərin, neft və qaz sektorunun inkişafı sayəsində olmuşdur (80%-ə qədər). Əlbəttə, dövlətin apardığı islahatlar iqtisadiyyatın inkişafında mühüm rol oynamışdır. Respublikamızda yeni iş yerləri açılmalı, qeyri-neft sektorunun, kiçik və orta sahibkarlığın sürətli inkişafı təmin olunmalı, yoxsulluğun azaldılması sahəsində təsirli tədbirlər görülməlidir. Ölkədə bazar münasibətlərinin formalaşdırılması və inkişaf etdirilməsi, sosial-iqtisadi inkişafın sürətləndirilməsi istiqamətində strateji islahatlar həyata keçirilməyə başlanılmışdır. Həyata keçirilən islahatlar iqtisadiyyatın gücləndirilməsi ilə yanaşı, həmçinin əhalinin məşğulluğunun təmin edilməsi istiqamətində əhəmiyyətlidir. Belə ki, bu sahədə islahatlardan savayı, həmçinin önəmli rolu əmək bazarları yerinə yetirirlər və bildiyimiz kimi bizim ölkədə də əmək birjalarının, yaradılmış əmək bazarının getdikcə əhəmiyyəti artmaqdadır. Digər tərəfdən, respublikamıza bərqərar olmuş iqtisadi-sosial və siyasi sabitlik xarici ölkələrin Azərbaycana olan marağını artırmış, xarici investisiyaların axınına şərait yaratmışdır.

1996-cı ildən başlayaraq ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşu genişlənmişdir ki, bu da davamlı inkişafının gələcək perspektivlərinə təminat verən amillərdəndir. Belə ki, ölkə iqtisadiyyatına xarici investisiya qoyuluşu 2000–2013–cı illərdə orta hesabla hər il 1 milyard dollardan çox olmuşdur. Bu illərdə iqtisadiyyatda

xarici mənbələr hesabına qoyulan investisiya dövlət büdcəsi gəlirlərindən 3 dəfə çox olmuşdur. 2013-cü ildə ümumi invesiyaların həcmi 21974,2 mln. man. təşkil etmişdir, bu isə 1995-ci illə müqayisədə 45,7 və 2000-ci illə isə 17 dəfədən çox olmuşdur [1]. Onlardan xarici investisiyaların payı 8269,3 mln.man., daxili isə 13704,9 mln.man. təşkil etmişdir. Son illərdə ölkədə əlverişli işgüzar mühit yaranmış, bu da öz növbəsində nəinki xarici, həmçinin daxili investisiyaların artımına səbəb olmuşdur. Belə ki, 2013-cü ildə daxili investisiyaların həcmi 2000-ci illə nisbətdə 30 dəfə artaraq 13704,9 mln. manat təşkil etmişdir. 2008-ci ildən başlayaraq, xaricı investisiyaların həcmi azalmağa , daxili investisiyaların həcmi isə- artmağa başlamış, belə ki, 2008-ci ildə ümumi imvestisiyaların həcmində 42% -xarici, 58% - daxili investisiyalar, 2013-ci ildə isə bu rəqəmlər 38% və 62% təşkil etmişdir.

Bildiyimiz kimi, investisiyaların həcminin ÜDM–ə nisbəti mühüm göstəricilərdən biridir və 90-cı illərin ortalarında bəzi inkişaf etmiş ölkələrdə bu 20-25% təşkil etmişdir. Bu nisbət optimal göstəricidir. Bəzi inkişaf edən ölkələrdə bu nisbət hətta 30-35% təşkil etmişdir. Təhlil göstərir ki, Azərbaycanda həmin göstərici optimal nisbətdən daha yüksəkdir. İnvestisiyaların ən yüksək payı 2003-2005-ci illərə təsadüf edir. Bu dövrdə investisiyalar, müvafiq olaraq, 59,5%; 68,2%; 53,8% təşkil etmişdir. Qeyd etmək lazımdır ki, investisiyaların ən yüksək payını bu dövr ərzində xarici investisiyalar təşkil etmişdir. 2003-cü ildə ÜDM-də 59,5% investisiyaların 46,3%-i xarici investisiyaların payına düşmüşdür, 2004-cü ildə – 68,2% - dən – 52,7%-i; 2005-ci ildə isə 53,8%-dən – 37,0% olmuşdur. 2013-cü ildə investisiyaların ÜDM-də xüsusi çəkisi 37,8,0% təşkil etmiş, xarici investisiyaların payı 14,2%,daxili isə 23,6% olmuşdur. Bu da daxili investisiyaların iqtisadi inkişafın aparıcı qüvvəsinə çevrilməsinin, xarici investisiyalardan asılılığın azalmasını göstərir və ÜDM-nın davamlı artımında öz əksini tapır.

İqtisadi göstəricilər arasında sənaye və kənd təssərrüfatının payı ÜDM-nın tərkibini xarakterizə edirlər. Sənaye məhsulunun həcmi ÜDM-da 58,3%, kənd təssərrufatı məhsulunun həcmi isə 9% təşkil edir.

Sənaye məhsulunun həcmi 2013- cü ildə 33898,1 mln. manat təşkil edib, bu isə 2000-ci illə müqaisədə 10 dəfə çoxdur. Geyd etmək lazımdır ki, 2000-ci ildə sənaye məhsulunun həcmində dövlət və geyri dövlət sektorlarının payları bərabər olub, 2013-ci ildə isə bu pay bolümü 1: 4 təşkil etmişdir.

Dövlət büdcəsinin xərcləri və gəlirləri, pərakəndə satışda mal dövriyyəsinin həcmi, xarici ticarət dövriyyəsinin həcmi, idxal və ixrac, əhalinin gəlirləru və xərcləri, istehlak səbəti indeksı, nominal əmək haqqı və manatın məzənnəsi kimi göstəricilər sosial–iqtisadi inkişafının keyfiyyətini xarakterizə edən göstəricilərə aiddir. Bunların arasında 2000-2013-cü il dövründə ən çox dəyişən göstəricilərə nəzər salaq [1].

2000-ci ildən başlayaraq ixrac idxalı üstəliyir, təmiz ixrac göstəricisi 2013-ci ildə 22126 mln. ABŞ dolları təşkil edib və ixrac idxaldan 3 dəfə çox olmuşdur. Ümümlikdə xarici ticarət dövriyyəsinin həcmi 2013-cü ildə 43551,2 mln. dollar təşkil edib, bu isə 2000-ci illə müqayisədə 15 dəfədən çoxdur. Pərakəndə ticarət dövriyyəsinə nəzər salsaq, bu sahədə də təhlil aparılan dövrdə 10 dəfədən çox artım müşahidə olunub.

Təhlil edilən dövr ərzində ciddi dəyişiklərə məruz qalan iqtisadi gostəricilər arasında əhalinin gəlirləri, xərcləri və orta nominal əmək haqqı haqqında məlumatlar mühüm yer tutur (Cədvəl 3).

*Cədvəl 3.*

Əhalinin gəlirləri və xərcləri (mln.manat)

| İllər | Gəlirlər | Xərclər | Orta nominal əmək haqqı(manat) |
|---|---|---|---|
| 2000 | 4047.3 | 3272.2 | 44.3 |
| 2001 | 3802.0 | 3130.0 | 52.0 |
| 2002 | 5018.6 | 4171.2 | 63.1 |
| 2003 | 5738.1 | 4793.8 | 77.4 |
| 2004 | 6595.1 | 5549.9 | 96.7 |
| 2005 | 8063.6 | 6508.7 | 123.6 |
| 2006 | 10198.5 | 8208.1 | 141.3 |
| 2007 | 14558.2 | 11249.7 | 214.0 |
| 2008 | 20735.4 | 15891.9 | 274.4 |
| 2009 | 22601.1 | 17417.6 | 298 |
| 2010 | 25607 | 19251.5 | 331.5 |
| 2011 | 30524.6 | 22184 | 364.2 |
| 2012 | 34769.5 | 24564 | 398.4 |
| 2013 | 37562 | 28021.2 | 425.1 |

Mənbə: http://www.stat.gov.az/source/budget_households/

Cədvəl 3-dən görünür ki, 2000-2013-cu illərdə əhalinin gəlirləri 9.3, xərcləri isə 8,6 dəfədən cox artmışdır. Ölkə üzrə orta nominal əmək haqqı da bu dövrdə 10 dəfədən çox artıb. Belə ki, 2000-ci ildə əhalinin gəlirləri 4047.3 mln.manat, 2006-ci ildə 10198.5 mln.manat,2013-cu ildə isə 37562 mln.manat olmuşdur. Əhalinin xərcləri isə qeyd etdiyimiz illərdə uyğun olaraq 3272.2 mln.manat, 8208.1 mln.manat, 28021.2 mln.manat təşkil etmişdir.Ölkə üzrə orta nominal əmək haqqı isə 2000-ci ildə 44.3 manat,2006-ci ildə 141.3 manat,2013-cü ildə 425.1 manat olmuşdur.

Sosial inkişaf ilk novbədə demoqrafik göstəricilərcə xarakterizə edilir: əhalinin sayi, təbii artım, doğum və ölüm əmsalları, ana ölümi və 1 yaşınadək uşaq ölümü əmsalları, ömür uzunluğu və s.( Cədvəl 4).

İlkin məlumatlara əsasən 2013-ci ilin əvvəllərində ölkə əhalisinin sayı 9 milyon 356,5 min nəfər, o cümlədən, 53%-ni şəhər, 47%-ni kənd sakinləri təşkil etmişdir. Əhalinin təbii artımı 2013-ci ildə 118288 nəfər təşkil etmişdir, bu isə 2000-ci il ilə müqaisədə 1,68 dəfə artım ilə müşahidə olub.

Bu gün Azərbaycan əhalisinin artımı əhalinin təbii artımı hesabına baş verir. Məlumdur ki, təbii artım doğum və ölümün nisbəti nəticəsində yaranır. Son zamanlara qədər Azərbaycan təbii artım yüksək olan ölkələr sırasına daxil idi. İnkişafın daha yüksək pilləsinə çatmış cəmiyyətin qarşısında isə başqa problem durur. İnkişaf etmiş ölkələrdə rifah halının ildən-ilə artması əhalinin orta yaş həddini yüksəldir, doğum isə aşağı düşür. Bu ölkələrdə doğumu artırma tədbirləri həyata keçirilir. Azərbaycanda inkişaf etmiş ölkələrə nisbətən doğumun hələ də yüksək olduğunu qeyd etmək olar. Qeyd edək ki, inkişaf etmiş ölkələrdə doğum əmsalı 9-14% arasında tərəddüd edir, Azərbaycanda isə 2013-cı ildə bu kəmiyyət 18.6 % olmuşdur**.** Yüksək doğum dövrləri

ölüm göstəricisinin dəyişilməsinə təsir edir. Ümumi ölüm səviyyəsinin aşağı enməsi 1 yaşa qədər ölən uşaqların sayının azalmasına müəyyən təsir etmişdir. Əgər 1990-cı ildə hər 1000 nəfər doğulana 23 bir yaşa qədər ölən uşaq düşürsə, 2000-cu ildə bu rəqəm 16. 4, 2013-ci ildə isə 10,8 olmuşdur. İlrdən ilə əhalinin ömür uzunluğu artmağdadır, 2013-ci ildə bu rəqəm 74,1 il təşkil edib, qadınlar üçün -76,9,kişilər – 71,3 il.

*Cədvəl 4.*

Azərbaycan Respublikasında demoqrafik və sosial göstəriciləri

| İllər | Əhali(min. adam) | Doğum əmsalı (adam) | Ölüm əmsalı (adam) | Uşaq ölüm əmsalı | İşsizlik səviyyəsi (%) | Yoxsulluq səviyyəsi (%) | Pensiyaların orta səviyyəsi (man) |
|---|---|---|---|---|---|---|---|
| 2000 | 8032.8 | 116994 | 46701 | 16.4 | 11.7 | 50.1 | 13 |
| 2001 | 8114.3 | 110356 | 45284 | 16.6 | 11.2 | 49.1 | 14.4 |
| 2002 | 8191.4 | 110715 | 46522 | 16.7 | 10.7 | 46.3 | 14.7 |
| 2003 | 8269.2 | 113467 | 49001 | 15.5 | 9.1 | 43.1 | 17.7 |
| 2004 | 8349.1 | 131609 | 49568 | 14.4 | 8.6 | 40.2 | 23.8 |
| 2005 | 8447.4 | 141901 | 51962 | 12.7 | 7.7 | 30.4 | 24.0 |
| 2006 | 8553.1 | 148946 | 52248 | 11.9 | 7.3 | 20.2 | 28.5 |
| 2007 | 8666.1 | 151963 | 53655 | 12.1 | 6.5 | 15.8 | 41.1 |
| 2008 | 8779.9 | 152086 | 52710 | 11.4 | 5.8 | 13.2 | 62.9 |
| 2009 | 8922.4 | 152139 | 52514 | 11.3 | 5.7 | 10.9 | 95.82 |
| 2010 | 8997.6 | 165643 | 53580 | 11.2 | 5.6 | 9.1 | 100.4 |
| 2011 | 9111.1 | 176072 | 53762 | 11.0 | 5.4 | 7.6 | 112.9 |
| 2012 | 9235.1 | 174469 | 55017 | 10.8 | 5.1 | 6.0 | 145.1 |
| 2013 | 9356.5 | 172671 | 54383 | 10.8 | 4.9 | 5.6 | 152 |

Mənbə: http://www.stat.gov.az/source/demoqraphy/

Respublikada aparılan islahatlar nəticəsində, yoxsulluq səviyyəsi 2002-ildəki 49% səviyyədən azalaraq, 2005-ci ildə 29,3 % təskil etmişdir. 2010-cu ildə yoxsulluq səviyyəsi 9.1%, 2012-ci ildə 6%,2013-cu ildə isə 5.6% olmuşdur. Yoxsulluq başqa bir sosial problemlə də sıx bağlıdır– işsizlik. Son illərdə daha da dərinləşən işsizlik probleminin həll edilməsi, dayanıqlı və məhsuldar məşğulluğun inkişaf etdirilməsi, yoxsulluq səviyyəsinin azaldılması, həmçinin layiqli və məhsuldar əməyi təmin edən iş yerlərinin yaradılması məsələləri ilə sıx bağlıdır. Belə ki, 2013-cı ildə işsizliyin səviyyəsi 4,9% təşkil etmişdir, bu isə 2000-ci illə müqayisədə 2 dəfə azdır.

Yekun olaraq qeyd edə bilərik ki, ölkənin davamlı sosial-iqtisadi inkişafını xarakterizə edən göstəricilər sisteminin təhlili iqtisadiyyatın, təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsinin cari vəziyyəti və inkişaf tendensiyası barəsində kompleks qiymətləndirmə aparmağa imkan verir. Bu isə öz növbəsində ölkənin sosial- iqtisadi inkişaf strategiyasının proqnozlaşdırılması prosesinda istifadə olunan ən mühüm amildir.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycanın statistik göstəriciləri 2014, Bakı, 2014. 812 s.

2.Зарова Е.В., Проживин Р.А. Сбалансированная система показателей развития региона: статистическое обоснование и эконометрическое моделирование // Вопросы статистики, 2008, №8, с.59-66.

3. Сивельник В.А., Кузнецова В. Е..Особенности статистического анализа уровня социального развития муниципалитетов. // Вопросы статистики, 2003, № 11, с. 38-43

4. Тамашевич В. Н. Проблемы статистического отображения экономического роста и экономического развития // Вопросы статистики, 2002, № 5, с. 15-23

5. http://www.stat.gov.az

## Анализ показателей характеризующих устойчивость социально-экономического развития в Азербайджанской Республике

Профессор Искендеров Рамиз
Доц. Аббасова Шаргия
Доц. Гулиев Рафик
Доц. Мирзоев Фархад

### Резюме

Развитие страны многосторонний и многогранный процесс, и, как правило, исследуется с точки зрения социальных и экономических целей. Социально-экономические показатели занимают очень важное место среди основных макроэкономических показателей, характеризующих экономическую ситуацию в стране. Устойчивость социально-экономического развития, в основном, характеризуется устойчивостью экономического, социального и экологического развития. В статье анализируется система показателей характерезующие устойчивость социально-экономического развития в Азербайджанской Республике и были выдвинуты соответствующие рекомендации.

**Ключевые слова:** Азербайджан, устойчивое развитие, социально-экономическое развитие, инвестиция, экологическое развитие.

**The analysis of the indicators characterizing the sustainability of socio-economic development in the Republic of Azerbaijan**

Prof. Ramiz Isgenderov
Assoc. Prof., Dr. Shergiyye Abbasova,
Assoc. Prof., Dr. Rafig Guliyev
Assoc. Prof., Dr. Ferhad Mirzeyev

**Summary**

The development of country is the multilateral and multifaceted process, and usually is investigated from the standpoint of social and economic objectives. Socio-economic indicators take very important place among the main macroeconomic indicators that characterize the economic situation of the country. The sustainability of socio-economic development is mainly characterised by sustainability of economic, social and ecological development. The sustainability of socio-economic development in the Republic of Azerbaijan is analysed and recommendations for improvements put forward in this article.

**Keywords:** Azerbaijan, sustainable development, social-economic development, investment, environmental.

**Qeyd:** Bu iş Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun maliyyə yardımı ilə yerinə yetirilmişdir – **Qrant № EİF-2013-9(15)-46/44/5**